AVRASİYA ƏMƏKDAŞLIQ FONDU

Ministry of Foreign Affairs of the Kingdom of the Netherlands

# Mədən sənayesində şəffaflığın səviyyəsinə dair ictimai müzakirə

Mirvari Qəhrəmanlı

Şirvan şəhəri,
9 May 2017

# *MHŞT-nin əsası

MHŞT 2002-ci ilin sentyabrında Yohannesburqda Dayanıqlı İnkişaf üzrə Dünya Sammitində bəyan edilmişdir. 2003-cü ilin iyunun 17-də, Londonda, Lankaster Hauzda keçirilmiş MHŞT üzrə 1-ci Beynəlxalq Konfransda MHŞT prinsiplər toplusu qəbul edilmişdir. Bu 12 prinsip iki əsas şərt üzərində müəyyənləşdirilmişdir. Bu prinsiplər göstərir ki, ölkənin təbii sərvətlərindən onun bütün vətəndaşları faydalanmalıdır

Hasilat sənayesində fəaliyyət göstərən xarici və yerli şirkətlər üçün - "**Ödədiyini dərc etdir**"

Hasilat sənayesi ilə məşğul olan ölkələrin hökumətləri üçün - "**Aldığını dərc etdir**"

# Konfransda aşağıdakı 3 hesabat forması qəbul edilmişdir

- Hasilat sənayesində fəaliyyət göstərən xarici və yerli şirkətlərdənhökumətin əldə etdiyi ödənişlərlə bağlı hesabat;
- Hasilat sənayesi ilə məşğul olan xarici şirkətlərin fəaliyyət göstərdiyi ölkədə hökumətə ödənişləri ilə bağlı hesabat;
- Hasilat sənayesi ilə məşğul olan yerli şirkətlərin öz ölkəsinin hökumətinə ödənişləri ilə bağlı hesabat.

# MHŞT hesabatlarında şirkətlər ödədiklərini, dövlət isə əldə etdiklərini dərc edir.



Azərbaycan Respublikasında MHŞT-nin tətbiqi məqsədi ilə 2004-cü il noyabrın 24-də əhəmiyyətli addım atılmışdır. MHŞT üzrə Komissiya, yerli və xarici şirkətlər və qeyri-hökumət təşkilatlarının Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyası arasında MHŞT-nin Azərbaycanda tətbiqi mexanizminin həyata keçirilməsinə dair Qarşılıqlı Anlaşma Memorandumu (QAM) imzalamışdır. Bununla da dünyada ilk dəfə Təşəbbüs həyata keçirilməyə başladı.

Ümumilikdə 2003-2015-ci illərdə Azərbaycan 20 MHŞT hesabatı açıqlamışdır

2017-ci ilin 8-9 mart tarixlərində Kolumbiyanın paytaxtı Boqota şəhərində Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsünün (MHŞT) Beynəlxalq İdarə Heyətinin 36-cı iclası keçirilib. Azərbaycan Respublikası Dövlət Neft Fondunun İcraçı direktoru, MHŞT üzrə hökumət Komissiyasının və Çoxtərəfli Qrupun sədri Şahmar Mövsümovun başçılıq etdiyi nümayəndə heyəti iclasda iştirak edib. İclas zamanı bir sıra məsələlər müzakirə olunmuş, o cümlədən 4 ölkənin – Tacikistan, Qırğızıstan, Solomon adaları və Azərbaycanın MHŞT-dəki üzvlüyünün dayandırılması barədə qərar qəbul etdi.

Bununla əlaqədar olaraq, MHŞT üzrə hökumət Komissiyasının və Çoxtərəfli Qrupun sədri Şahmar Mövsümov bəyanatla çıxış edərək Azərbaycanın MHÇT-dən rəsmi şəkildə çxdığını bəyan etmişdir.

5 aprel 2017-ci ildə Prezident İlham Əliyev hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında fərman imzalayıb.

Fərmanda qeyd olunur ki, təbii ehtiyatlardan əldə edilən maddi sərvətlərin ölkə vətəndaşlarının rifahı üçün idarə edilməsinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqi aşağıda göstərilmiş beynəlxalq prinsiplər əsasında davam etdirilsin:

1.1. təbii ehtiyatlardan əldə olunan gəlirlərin vətəndaşların rifahı və ölkənin milli maraqları naminə idarə olunması suveren dövlətlərin səlahiyyətlərinə aiddir;

1.2. təbii ehtiyatlardan əldə olunan gəlirlərdən qənaətli istifadə yoxsulluğun azaldılmasına və davamlı iqtisadi inkişafa təkanverən mühüm vasitədir;

1.3. dövlət orqanlarının fəaliyyətində, özəl sektorda və ictimai münasibətlərdə şəffaflıq və hesabatlılıq standartları təşviq edilməlidir;

1.4. dövlət hasilat sənayesindən əldə olunan gəlirlərin idarə olunması ilə bağlı vətəndaşlar qarşısında hesabat verməlidir;

1.5. şəffaflığın artırılmasına müvafiq müqavilə və qanunlara əməl etməklə nail olunmalıdır;

1.6. hasilat sənayesində fəaliyyət göstərən dövlət və özəl şirkətlər tərəfindən şəffaflığın, o cümlədən dövlətin maliyyə idarəetməsinin və hesabatlılığın gücləndirilməsi təmin olunmalıdır;

1.7. ölkənin maliyyə şəffaflıq standartları hasilat sənayesində fəaliyyət göstərən bütün şirkətlərə şamil edilməlidir;

1.8. bu sahədə şəffaflığın tətbiqində dövlət orqanları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, beynəlxalq təşkilatlar, maliyyə qurumları, investorlar və qeyri-hökumət təşkilatları da daxil olmaqla, bütün maraqlı tərəflərin iştirakı təmin edilməlidir.

2. Azərbaycan Respublikasının hasilat sənayesində şəffaflığın və hesabatlılığın təmin edilməsi məqsədilə aşağıdakı tərkibdə Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiya da yaradılmışdır
Mövsumov – Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru
Komissiyanın üzvləri:
Natiq Abbasov – Azərbaycan Respublikası energetika nazirinin müavini

Sahib Ələkbərov – AzKomissiyanın sədri
Şahmar ərbaycan Respublikası vergilər nazirinin müavini

Emin Hüseynov – Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Sahil Babayev – Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini

Rauf Hacıyev – Azərbaycan Respublikası ekologiya və təbii sərvətlər nazirinin müavini
Yusif Yusifov – Azərbaycan Respublikasının Dövlət Statistika
Komitəsi sədrinin müavini.

# ARDNF-gəlirlər və xərclər

ARDNF neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanmasını təmin edən xüsusi qurumdur. ARDNF ayrıca idarəetmə strukturuna malik hüquqi şəxs qismində yaradılmış xüsusi məqsədli dövlət qurumudur. ARDNF-nin Əsasnaməsi 2000-ci ildə təsdiq edilmişdir.ARDNF-nin yaradılması fəlsəfəsinin əsasını neft sərvətlərinin nəsillər arasında ədalətli bölüşdürülməsinin təmin edilməsi təşkil edir.

# Azərbaycan Respublikasının Dövlət Neft Fondunun xərcləri

ARDNF-nin 2016-cı il büdcəsinin icrası , gəlirləri

9 410 180,0 min manat, xərcləri isə 9 022 059,0 min

manat olmaqla təsdiq edilib.

# Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin gəlirlərinin aşağıdakı daxilolmalar hesabına formalaşması nəzərdə tutulur (min.man):

- Azərbaycan Respublikasının payına düşən karbohidrogenlərin

satışından əldə edilən xalis gəlirlər -7 550 705,3

- Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar

sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün

ödənilən akrhesabı ödənişlər-3 465,0

- Neftin və qazın Azərbaycan Respublikasının ərazisi ilə

# Dövlət Neft Fondunun 2017-ci il büdcəsinin gəlirlərinin aşağıdakı daxilolmalar hesabına formalaşması nəzərdə tutulur (min.man)

- Dövlət Neft Fondunun valyuta aktivlərinin yerləşdirilməsindən

və idarə olunmasından əldə edilən gəlirlər-799 094,6

- Neft-qaz sazişlərinin imzalanması və ya icrası ilə

bağlı sərmayəçilər tərəfindən ödənilən bonuslar- 495,0

*Cəmi*- 8 370 589,9

# 2017-ci ilin ilk rübünə (yanvar-mart) olan məlumat

Ayrılmış vəsaitlər

- 1. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi – 297,9 mln. manat
- 2. Qaçqın və məcburi köçkün ailələrinin sosial-məişət vəziyyətinin yaxşılaşdırılması və məskunlaşdırılması problemlərinin həlli – 2 025,6 mln. manat
- 3. Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi – 779,6 mln. manat

# 2017-ci ilin ilk rübünə (yanvar-mart) olan məlumat

- 4. Samur-Abşeron kanalının rekonstruksiya edilməsi –1 318,2 mln. manat
- 5. Dövlət büdcəsinə transfertlər – 73 042,0mln. manat
- 6. Dövlət İnvestisiya şirkətinin nizamnamə kapitalının maliyyələşdirilməsi (2006-cı ildə başa çatıb) – 90,0 mln. manat

# 2017-ci ilin ilk rübünə (yanvar-mart) olan məlumat

- “Bakı-Tbilisi-Qars yeni dəmir yolu” layihəsi – 553,1 mln. manat
- 8. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının” maliyyələşdirilməsinə - 190,5 mln. manat
- 9. AÇG üzrə layihədə ARDNŞ-nin iştirak payının maliyyələşdirilməsi – 87,6 mln. manat

# 2017-ci ilin ilk rübünə (yanvar-mart) olan məlumat

- 10. “STAR” neft emalı kompleksinin tikintisi – 927,9 mln. manat
- 11. “Cənub Qaz Dəhlizi” QSC-nin nizamnamə kapitalında dövlətin iştirak payının maliyyələşdirilməsi – 1 530,3 mln. manat